# Azərbaycan-Türkiyə müttəfiqliyi: zamanla səsləşən birgə addımlar

*Möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Türkiyə dövlətlərarası əlaqələri ötən dövrdə böyük inkişaf yolu keçərək, xüsusilə də son illər ərzində dövlət başçılarımızın qətiyyətli səyləri ilə dayanıqlı strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək səviyyəsinə çatıb. 44 günlük Vətən müharibəsi zamanı bütün dünya buna bir daha şahid oldu.*

## İki qardaş ölkə arasında strateji əlaqələr yeni mərhələdə çoxşaxəli tərəfdaşlığa fundamental təminat yaradır

Şuşa Bəyannaməsi ilə yeni mərhələyə qədəm qoyan Azərbaycan-Türkiyə müttəfiqlik, dostluq və qardaşlıq münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə addımların atılacağı qətiyyətlə ifadə olunur. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qərar imzalayıb. Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev isə Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Qanunu bu il fevralın 12-də imzalamışdır.

Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir. Eyni zamanda, Qarabağda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti regionda sülhün bərqərar olunmasının təsirli mexanizmi kimi diqqət çəkir.

**(davamı 3-cü səhifədə)**

# Azərbaycan-Türkiyə müttəfiqliyi: zamanla səsləşən birgə addımlar

(əvvəli 1-ci səhifədə)

Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Rəcəb Tayyib Ərdoğanı təbrik edən Prezident İlham Əliyev qeyd edib ki, ötən dövr ərzində Azərbaycan-Türkiyə münasibətləri möhtəşəm inkişaf yolu keçib: "Gerçəkləşdirdiyimiz nəhəng enerji, nəqliyyat, infrastruktur layihələri ortaq təşəbbüslərimizin və birgə səylərimizin real təntənəsidir. Əminəm ki, bu günün reallığı və xalqlarımızın qürur mənbəyi olan nümunəvi Azərbaycan-Türkiyə birliyi və qardaşlığı gələcək nəsillərə strateji yol xəritəsi, əbədi və sarsılmaz miras olaraq qalacaqdır" - deyə məktubda bildirilir. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyə qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, həmçinin BMT, ATƏT, Avropa Şurası, TDT, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verirlər.

Azərbaycanın əhəmiyyətli ticarət tərəfdaşı olmaqla, Türkiyə ölkəmizin xarici ticarət dövriyyəsində və ixracında 2015-ci ildən, idxal əməliyyatlarında isə 2013-cü ildən etibarən 2-ci yerdədir. 2019-cu ildə Türkiyə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 4.5 milyard dollar olmaqla 14% paya malik olub. Yüksələn trayektoriya üzrə inkişaf edən qarşılıqlı idxal-ixrac əməliyyatlarının həcminə pandemiyanın yaratdığı gərginliklər ciddi təsir göstərməyib. Belə ki, son statistik məlumata görə, iki ölkə arasında ticarət həcmi 4,16 milyard dollar təşkil edib. Bununla yanaşı, Azərbaycan və Türkiyənin iqtisadiyyatları arasındakı potensialın tam olaraq dəyərləndirilməsi və 2023-cü il üçün 15 milyard dollar olaraq hədəflənən ticarət həcminə nail olunması üçün davamlı kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri kimi 1 mart 2021-ci ildən qüvvəyə minən Preferensial Ticarət Sazişi qeyd edilə bilər. Bu saziş 15 mal qrupu üzrə tariflərin azaldılması, qeyri-tarif maneələrinin aradan qaldırılması ilə iki ölkə arasındakı idxal-ixrac əməliyyatlarını artıraraq ölkələrin qarşıya qoyduqları ticarət dövriyyəsi hədəfinə çatmasını sürətləndirəcək. Bundan başqa, iqtisadi əlaqələrin genişləndirilməsi ölkələr arasında investisiya qoyuluşlarını da artıracaq. Hazırda Türkiyə Azərbaycanda daha çox qeyri-neft sektoruna, Azərbaycan isə Türkiyədə, əsasən, energetika və kimya sahələrinə kapital axını yaradır. Türkiyədən Azərbaycana investisiya qoyuluşları 12 milyard dollar, Azərbaycandan Türkiyəyə sərmayə yatırımları isə 19,5 milyard dollar təşkil edir. Hazırda Türkiyədə 2000-ə yaxın Azərbaycan, ölkəmizdə isə 4100-dən artıq Türkiyə şirkəti fəaliyyət göstərir. Türkiyədəki həm şirkət sayı, həm də investisiya həcminə görə Azərbaycan Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir. İki ölkə arasında birgə investisiya fondunun təsis edilməsi dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilə bilən birgə texnologiyanın transferini, istehsalın lokalizasiyasını nəzərdə tutan iri müəssisə və layihələrin reallaşması nəticəsində investisiya hədəflərinə çatmasını və imkanların maksimal dəyərləndirilməsi istiqamətində qarşıda duran vəzifələrin icrasını sürətləndirəcək.

**İki qardaş ölkə arasında strateji əlaqələr yeni mərhələdə çoxşaxəli tərəfdaşlığa fundamental təminat yaradır**

İki qardaş ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında 31 oktyabr 2017-ci ildə imzalanmış Saziş bu il aprel ayının 5-də Türkiyə Prezidenti tərəfindən təsdiqlənib. Saziş hər iki ölkənin müdafiə sənayesi nazirlikləri arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutur və bu məqsədlə Sazişə əsasən Birgə Komissiyanın fəaliyyəti iki qardaş ölkənin müdafiə sənayeləri arasında işbirliyi ilə bağlı bütün məsələləri, o cümlədən hərbi texnika, silah və sursatların birgə istehsalı və satışı, hərbi texnologiyaların təkmilləşdirilməsi istiqamətində birgə tədqiqat işlərinin aparılması kimi əməkdaşlıq sahələrini əhatə edir. Türkiyə ilə Azərbaycan arasında mövcud hərbi əməkdaşlığın bütün parametrləri dünya üçün açıqdır. Türkiyə və Azərbaycan arasında bütün istiqamətlərdə daim dərinləşən əməkdaşlıq dövlətlərin qəbul etdiyi birgə qərarlara və beynəlxalq qanunlara əsaslanır. Əvvəlcədən razılaşdırılmış dövlətlərarası tədbirlər planına əsasən Azərbaycan və Türkiyə ərazilərində ordu birləşmələrinin birgə hərbi təlimləri möhkəm və sarsılmaz birliyimizin növbəti təntənəsidir.

Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri müttəfiqlik münasibətlərimizin inkişafında yeni mərhələnin başlanğıcıdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında deyib: "Ölkələrlə regional problemləri də müzakirə edirik. Məsələn, qardaşım - Azərbaycan Prezidenti İlham Əliyevin bir günlük səfərində əsas mövzumuz Rusiya və Ukrayna olub. O, Rusiyanı ən yaxşı tanıyan liderlərdən biridir. Onun cənab Putinlə münasibətləri hamıya məlumdur. O, bu müharibənin ən yaxşı analitiklərindən biridir. Bizim onunla bu mövzularda çox açıq və aydın danışmaq imkanımız oldu". Onu da qeyd edək ki, qarşılıqlı səfərlər və bu səfərlər çərçivəsində imzalanan sənədlər, keçirilən görüşlər və müzakirə olunan məsələlər əlaqələrin inkişafında stimulverici amil rolunu oynayır. Çoxəsrlik böyük tarixi ənənələrə, dərin köklərə malik olan Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının İlham Əliyev - Rəcəb Tayyib Ərdoğan mərhələsi xalqlarımızın və ölkələrimizin şanlı birlik salnaməsinə yeni və parlaq səhifələr əlavə edir. Azərbaycan-Türkiyə Cümhuriyyəti həmrəyliyi və əməkdaşlığı ölkələrarası münasibətlərin bütün sahələr üzrə inkişaf etdirilib daha da möhkəmləndirilməsinə uğurla xidmət etdiyi kimi, beynəlxalq aləmdə də sülhün və əmin-amanlığın, təhlükəsizliyin, əməkdaşlığın tənzimlənməsində, regionda meydana çıxan problemlərin həllində mühüm əhəmiyyətə malikdir. Azərbaycan və Türkiyə birliyi və həmrəyliyi dünyada sülhün, təhlükəsizliyin, inkişafın və əməkdaşlığın eyni gövdəyə -kökə malik sarsılmaz qoşa qanadlarıdır. Azərbaycan-Türkiyə prezidentlərinin qardaşlıq münasibətləri və qarşılıqlı etimadı - dünyada, regionda və ölkələrimizdə sülhün, təhlükəsizliyin, inkişafın və əməkdaşlığın qarantıdır. Dostlarımız üçün qürur mənbəyi, düşmənlərimizə göz dağı olan birlik, qardaşlıq və həmrəylik Azərbaycanın və Türkiyənin tarixi taleyi, bu günün reallığı və böyük gələcəyin dəyişməz düsturudur. Şuşa Bəyannaməsinin imzalanmasının tarixi əhəmiyyətini xüsusi vurğulayan Prezident Ərdoğan deyib: "Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük". Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Dövlət başçımızın dediyi kimi: "...müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı öz-özlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatıdır".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 28 aprel.- S.1;3.